“Azəravtoyol” ASC

# MARAQLI TƏRƏFLƏRLƏ QARŞILIQLI ƏLAQƏ PLANI (MTQƏP)

## Azərbaycan Gəncə-Qazax-Gürcüstan sərhədi M-2 Yolunun genişləndirilməsi

Tarix: 23/05/2016

## MÜNDƏRİCAT

1. Giriş ____ 3
2. LAYİHƏ ____ 4
3. MARAQLI TƏRƏFLƏR İLƏ QARŞILIQLI ƏLAQƏ ÜZRƏ HÜQUQİ VƏ SİYASİ ÇƏRÇİVƏ ____ 7
4. ƏVVƏLKİ MARAQLI TƏRƏFLƏRİN QARŞILIQLI ƏLAQƏSİ ____ 8
5. MARAQLI TƏRƏFLƏRİN, ƏLAQƏ ÜSULLARININ VƏ QARŞILIQLI ƏLAQƏ PLANININ MÜƏYYƏN EDİLMƏSİ ____ Error! Bookmark not defined.
6. MƏLUMATIN AÇIQLANMASI VƏ MARAQLI TƏRƏFLƏRLƏ ƏLAQƏ PROQRAMI ____ 21
7. ŞİKAYƏTLƏRIN HƏLL EDİLMƏSİ MEXANİZMİ ____ 22
8. HESABAT ____ 23
9. MTQƏP-in HƏYATA KEÇİRİLMƏSİ İLƏ BAĞLI ƏLAQƏ MƏLUMATLARI VƏ MƏSULİYYƏT ____ 23

## İxtisarlar və Qısaltmalar

| | |
|---|---|
| AYİB | Avropa Yenidənqurma və İnkişaf Bankı |
| ƏMSƏTSS | Ətraf Mühit, Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Sosial Sahə |
| ƏMTQ | Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi |
| ƏM və SS | Ətraf Mühit və Sosial Sahə |
| ESTP | Ekoloji və Sosial Tədbirlər Planı |
| ESS | Ekoloji və Sosial Siyasət |
| km | kilometr, ölçü zənciri ilə təyin edilən məsafəni (yol dəhlizi boyu məsafəni) və uzunluğu müəyyənləşdirmək üçün istifadə edilir |
| TSA və K | Torpağın Satın Alınması və Köçürülmə |
| ETSN | Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| QHT | Qeyri-hökumət Təşkilatları |
| QTX | Qeyri-Texniki Xülasə |
| LTMQŞ | Layihənin Təsirinə Məruz Qalan Şəxslər |
| İT | İstismar Tələbi |
| KP | Köçürülmə Planı |
| YŞİP | Yol Şəbəkəsinin İnkişaf Planı |
| MTQƏP | Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planı |

# 1. Giriş

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) Azərbaycan dövlətinə məxsus “Azəravtoyol” yol agentliyinə Gəncədən Azərbaycan ilə Gürcüstan arasındakı sərhədə qədər uzanan M-2 yol dəhlizinin 130,15 km genişləndirilməsi işlərinin yerinə yetirilməsi layihəsinə dəstək məqsədilə maliyyə vəsaitinin ayrılmasını nəzərdən keçirir. Nəzərdə tutulan təkmilləşdirmə işlərinə orta ayırıcı xəttə malik olan iki zolaqlı, ikitərəfli magistral yolunun (yəni dörd zolaqlı) yaradılması üçün mövcud birtərəfli iki zolaqlı magistral yolunun genişləndirilməsi və/və ya yenidən təşkil edilməsi daxildir.

Layihənin yeri Şəkil 1-də göstərilib, Gəncədən şimal-qərbə doğru Gürcüstan sərhədinə qədər uzanan hissə.

***Şəkil 1 Layihənin yeri***




Layihə “Azəravtoyol” tərəfindən milli qanunvericiliyə və Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB-nin) tələblərinə uyğun olaraq hazırlanmışdır. AYİB Layihəyə maliyyə ayırmağı nəzərdən keçirir. Keçmiş layihə planlanması və sənədləri Beynəlxalq Maliyyə Qurumlarının (BMQ-lər) tələblərinə uyğun olaraq hazırlanmışdır ki, bundan əvvəl layihənin maliyyələşdirilməsini məhz onlar planlaşdırırdı, yəni Asiya İnkişaf Bankı (AİB) və İslam İnkişaf Bankı (İİB).

**Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planı (MTQƏP)** bu yanaşmanı əks etdirir və “Azəravtoyol” Layihə ilə bağlı Maraqlı Tərəflərlə və yerli icmalarla Qarşılıqlı Əlaqələrin yaradılması üçün tədbirlər görəcək. MTQƏP-ə Maraqlı Tərəflər və Layihə ilə bağlı narahatlıqlarını bildirən insanlar üçün şikayət mexanizmi daxildir. MTQƏP “Azəravtoyol” tərəfindən daim və vaxtaşırı yenilənən sənəddir.

Layihə üzrə **Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi (ƏMTQ**) həyata keçirilmiş və Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təsdiq edilmişdir. Layihə həyata keçirilmiş ətraf mühit və sosial araşdırmalar nəticəsində aşkar edilənləri, habelə müəyyən edilən riskləri cəmləşdirən **Qeyri-Texniki Xülasə (QTX)** sənədi hazırlanmışdır. Torpaq sahələrinin satın alınması prosesi hal-hazırda davam etməkdədir ki, bunu istiqamətləndirmək və sənədləşdirmək üçün də **Köçürülmə Planı (KP)** hazırlanmaqdadır. Gələcək Layihə hazırlanması işlərinin AYİB-

nin Ekoloji və Sosial Siyasətinə (ESS 2014) uyğunluğunun təmin edilməsi üçün nəzərdə tutulan Layihə ilə bağlı **Ekoloji və Sosial Tədbirlər Planı (ESTP)** hazırlanmışdır

Bu Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planı (MTQƏP) və digər əsas ekoloji və sosial sahələr üzrə layihə sənədləri – ƏMTQ, QTX, KP və ESTP – "Azəravtoyol"un və AYİB-nin internet səhifəsinə yüklənəcəkdir. (http://www.azeravtoyol.gov.az/az ) (http://www.ebrd.com/home )

## 2. LAYİHƏ

**Layihənin tələbləri və faydaları**

Yerli iqtisadiyyat əhəmiyyətli dərəcədə kənd təsərrüfatından asılıdır və bu sektor üçün təkmilləşdirilmiş yol şəbəkəsi önəmlidir Təkmilləşdirilmiş nəqliyyat bağlantıları və qısaldılmış səfər vaxtları Azərbaycanda və qonşu ölkələrdə iqtisadi inkişafa yardım edəcək.

Mövcud yol Gəncə, Şəmkir, Tovuz, Ağstafa və Qazax şəhərlərini digər kiçik şəhər, kənd və yerli icmalarla birləşdirən regionun əsas yerli nəqliyyat paylanma yoludur. Onun modernləşdirilməsi vacibdir, çünki hazırkı yol şəbəkəsinin təhlükəsizlik standartları aşağı və bədbəxt hadisələrin sayı orta səviyyədən yuxarıdır, xüsusən də bu yol hissəsində qarşı-qarşıya toqquşmalar böyük narahatlıq yaradır. Layihə nəticəsində yol təhlükəsizlik standartları təkmilləşdiriləcəkdir. Yolun genişləndirilməsi ötmə zamanı qarşı-qarşıya toqquşma riskini azaldacaq. Yerli kənd təsərrüfatı texnikasının hərəkətinin (məs. traktorlar və s.) ağır avtomobillərin hərəkətindən və regional yol hərəkətindən ayrılması da yolun təhlükəsizlik standartını artıracaq.

Marşrutun bəzi hissələrində dolayı yolların (baypasların) təmin olunması. həmçinin yolun hal-hazırda icmalardakı şəhər sahələrindən keçdiyi yerlərdə yol hərəkətinin yaratdığı emissiyaları və səs-küyü azaldacaq. Bu yerli əhali üçün həm yaşayış standartını, həm də icmanın təhlükəsizliyini artıracaq.

**Layihə qrafiki və tikintinin işçi qüvvəsi**

Layihə qrafiki və cari işçi qüvvəsi üzrə təxmini məlumatlar aşağıda göstərilmişdir. Bunlar hazırkı vaxta olan təxmini məlumatlardır (aprel 2016) və tədarük və torpaq sahələrinin alınması kimi digər cari tədbirlərdən asılı olaraq dəyişə bilər.

- "Azəravtoyol" hazırda tikinti işlərinə 2017-ci ilin 3-cü rübündə başlamağı planlaşdırır. İşlər üçün ehtimal olunan tikinti müddəti 3 ildir. Bu o deməkdir ki, işlərin 2017-ci ilin 3-cü rübündə başlanması şərtilə, tam Layihə yolu 2020-ci ilin 3-cü rübünə qədər istismara verilməlidir.
- ƏMTQ-də tikinti işçi qüvvəsinin 300-500 nəfər arasında olmasına istinad edilir. Bu, işlər üçün tədarük strategiyasından asılı olacaq. Əgər layihə 2 müqaviləyə bölünərsə, işçilərin sayı potensial olaraq artaraq, pik vaxtlarda 800-dək çata bilər. Ehtimal edilir ki, Podratçı marşrut boyunca bir və ya iki tikinti düşərgəsi qura bilər və bəzi işçilərin qalacaq yeri bu düşərgələrdə təşkil oluna bilər. Lakin "Azəravtoyol" ehtimal edir ki, işçilərin əksəriyyəti qalacaq yerini marşrut boyunca yerli şəhər və kəndlərdə tapacaq.

Layihəyə Gəncədəki dolayı yol (baypas) ilə Gürcüstan sərhədi arasındakı mövcud yolun genişləndirilməsi daxildir. Bu, öncədən 2 ayrıca təkmilləşdirmə layihəsinə bölüşdürülmüşdür – Gəncədəki dolayı yoldan (baypas) Qazağa qədər və Qazaxdan Gürcüstan sərhədinə qədər. Ona görə də, bəzi Layihə sənədləri bu 2 hissəyə bölünmüşdür.

**Layihə sənədlərinin xülasəsi**

Aşağıdakı Şəkil 2-də əsas şəhər və tikilən ərazilər göstərilməklə, mövcud yolun və nəzərdə tutulan Layihənin sxemi təqdim edilir. Qırmızı xətt bir neçə şəhərdən keçən cari M-2 magistral yolunu göstərir. Sxem miqyasa uyğunlaşdırılmamışdır. Hazırkı yol hər tərəfdə bir zolaq olmaqla, birtərəfli iki zolaqlı magistral yoldur və orta bölüşdürücü xətti yoxdur Onun eni təxminən 15 m-dir

Layihə nəticəsində Gəncədəki dolayı yol (baypas) ilə Gürcüstan sərhədi arasındakı yol hər istiqamətdə iki zolaq və orta bölüşdürücü xətt olmaqla, 130,15 km-lik uzun ikitərəfli magistral yola çevriləcəkdir. Yeni iki istiqamətli magistral yolun eni 27, 5 m olacaqdır ki, bu da iki hərəkət zolağı və hər istiqamətdə 3,75 m-lik ehtiyat qəza zolağı, eləcə də mərkəzi bölüşdürücü xətt üçün 5 m yer təmin edəcək. Yolun genişləndirilməsi Layihəsinə

mövcud 58,65 km-lik yolun genişləndirilməsi və marşrut boyunca əsas şəhər sahələrindən dolayı keçəcək yeni 71,5 km-lik dolayı yolun (baypas) tikintisi daxil olacaq. Dolayı (baypas) hissələr mövcud yolun şəhər sahələrindən genişləndirilməsi çox çətin olan yerlərdə lazım gələcək. **Yolun hər bir hissəsi üçün planlaşdırılan təkmilləşdirmə işlərinin növü Şəkil 2-də göstərilmişdir.** Qeyri-Texniki Xülasədə yeni yolun daha ətraflı təşkil olunması xəritələri verilmişdir.

Burada altı yeni dolayı yol var və onlar aşağıdakı icmaların ətrafındakı M-2 yolunu əhatə edəcək: Şəmkir, Aşağı Ayıblı, Ağstafa/Qazax, Yuxarı Salahlı və İ Şıxlı. Əlavə olaraq, Könüllü yaxınlığında yeni qovşağın yaradılması üçün Könüllü yaxınlığındakı hazırkı yolun yanında qısa dolayı yol yaradılacaq. Bu dolayı yolların tikintisi üçün 60 m enində "Tikinti dəhlizi" adlanan torpaq zolağı lazım gələcək.

Yolun işlək hissəsi də daxil olmaqla, Layihəyə digər mühüm infrastruktur da daxildir, o cümlədən:

- *Layihə yolunun yeni ikitərəfli işlək hissəsinə çıxmaq üçün dolayı yollar ilə dörd yol kəsişməsi (məs, kəsişmələr, nəqliyyat keçidləri (körpülər) və yeraltı keçidlər), o cümlədən:* **22** yeni yol kəsişməsi, bunlardan **18-**i yol qovşaqlarını mövcud yollar ilə təmin etmək üçün dolayı yolu olan müxtəlif səviyyələrə ayrılmış əsas kəsişmə yollarıdır. Yerli yollardan yeni iki tərəfli işlək yol hissəsinə çıxa bilmək üçün, dolayı yollar ilə yerli yolları Layihə yoluna çıxarmaq məqsədilə yaradılmış **4** yol ötürücüsü. Yerli yolları yeni işlək yol hissəsinin altından keçirmək və Layihə yoluna girişi təmin etmək üçün dolayı yollar ilə tamamlanmaqla yaradılacaq **10** yeraltı keçid.
- *Yerli yollara birləşməsi olan, lakin yeni iki-tərəfli işlək Layihə yoluna heç bir girişi olmayan kəsişmələr (məs, yerüstü keçidlər (körpülər) və yeraltı keçidlər), o cümlədən:* Yerli yolların yeni işlək yol hissəsinin altından keçə bilməsi üçün təxminən **44** əlavə yeraltı keçid yaradılacaq, lakin bunun Layihə yoluna birləşməsi olmayacaq. **5 y**erüstü keçid yerli yolları Layihə yoluna birləşmədən ondan keçirəcək.
- Layihə yolu **3** istirahət zonası və təxminən **28** avtobus dayanacağı ilə təchiz olunacaq.

**Layihə sahəsi**

Mövcud M-2 yolu əsasən düzənlik kənd təsərrüfatı torpaqlarından keçməklə, Kür çayı vadisinin cənub tərəfi boyunca cənub-şərq-şimal-qərb istiqamətində uzanır. M-2 yolunun altından bir sıra çay və bir neçə kiçik kanal axır. Bu çaylar çay yataqlarından geniş həcmdə aqreqatların(doldurucu material) çıxarılmasına məruz qalır. Bu çaylarda axınlar demək olar ki, qəfil daşqınlardan heç daşqın olmayan səviyyələrə qədər dəyişir və onlar seyrək şəkildə bitki örtüyünə malikdir. Ərazidə kənd təsərrüfatı yerli çaylardan gətirilən səth suları və nasosla vurulan qrunt suları ilə suvarılır.

Yol geniş həcmli əkin sahələri arasından, o cümlədən üzüm və yem məhsulları əkilmiş torpaqlar olmaqla, bir sıra şəhər və kəndlərin içindən keçir. Bəzi sahələr əvvəllər əkilmiş, lakin hal-hazırda dincə qoyulmuşdur, yaxud bəzi boş otlaqlar mal-qara və ya qoyunlar üçün istifadə olunan və istifadə olunmayan şumlanmış ərazilərdir. Mövcud yol boyunca marşrutun bəzi hissələrində istixanalardan xeyli istifadə olunur. Nəzərdə tutulan dolayı yolların marşrutları əsasən əkilmiş kənd təsərrüfatı torpaqlarından keçir. Mövcud yolun bilavasitə yanında olan torpaqlar çox vaxt yarı-işlənmiş, qarışıq binalar, xidmətlər, sakilər olan və/yaxud hələ işlənməmiş açıq torpaqlardır. Yol kənarlarında əsasən sıralı ağaclar əkilib.

Yol 4 rayondan- Şəmkir, Tovuz, Ağstafa və Qazax rayonlarından keçir. Marşrutun başladığı Gəncə Azərbaycanın ikinci ən iri şəhəridir və mühüm sənayeyə, o cümlədən alüminium emalı sənayesinə malikdir. Gəncədən başqa, Layihə ərazisindəki əsas şəhərlər Şəkil 2-də sxematik planda göstərilir ki, bunlara aşağıdakılar daxildir: Şəmkir, Aşağı Ayıblı, Tovuz, Qazax, Ağstafa, Yuxarı Salahlı, və İ Şıxlı. Yol boyunca Kür çayının su sisteminin tarixi mövcudluğunu təsdiq edən bir çox digər daha kiçik şəhərlər və kəndlər mövcuddur. Layihə zonasının yaşayış üçün bazası da dəyişir, daha iri şəhərlərdə sənaye sahələri, dövlət xidməti və xidmət sahəsi üzrə məşğulluq mövcuddur. Şəhərlərdən kənardakı ərazilərdə məşğulluq sahəsi, fermerlik əsas yaşayış vasitəsi sayılmaqla, başlıca olaraq aqrar yönümlüdür. Burada magistral yol istifadəçiləri üçün bəzi yol kənarı xidmətlər mövcuddur – kafelər, restoranlar, yanacaqdoldurma stansiyaları və s.

***Şəkil 2- Gəncədən Qazağa və Gürcüstan sərhədinə qədər yolun genişləndirilməsi layihəsinin sxematik planı.***



## 3. MARAQLI TƏRƏFLƏR İLƏ QARŞILIQLI ƏLAQƏ ÜZRƏ HÜQUQİ VƏ SİYASİ ÇƏRÇİVƏ

Layihə üzrə maraqlı tərəflər ilə qarşılıqlı əlaqə Azərbaycanda milli qanunvericiliyə, eləcə də AYİB-nin müvafiq tələblərinə uyğun olacaq. Bunlar aşağıda təsvir olunur:

**Azərbaycanın Hüquqi Çərçivəsi**

Layihə sənədlərinin hazırlanması zamanı ictimai məsləhətləşmələr və məlumatın açıqlanması üzrə tələblər (məs., Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi (ƏMTQ), Landşaft planlaması üzrə sənədlər və s) əsasən aşağıda qeyd olunan qanunlar əsasında əhatə olunur:

- Ətraf Mühitin Mühafizəsinə dair Qanun (1999-cu il) ətraf mühitin qorunmasında geniş ictimaiyyətin və vətəndaş cəmiyyəti təşkilatlarının iştirakı qaydalarına əsaslanır. Lakin ”ətraf mühitin yoxlanması”nı nəzərdə tutan VIII Fəsildə ictimaiyyətin cəlb olunması ilə bağlı xüsusi bir şərt yoxdur.
- İnformasiya Əldə Etmə Hüququna dair Qanun (2002-ci il) sərbəst, məhdudlaşdırılmayan və bərabər informasiyanın əldə olunmasının təmin edilməsi üzrə çərçivəni və məlumatı açıqlamaq üçün Dövlət orqanları və Bələdiyyələrin öhdəliklərini müəyyən edir. 29-cu Maddənin müddəaları arasında, məlumat sahibinin ekoloji şərait, ətraf mühitə vurulan zərərlər və ətraf mühitə təhlükəli təsirlər barədə məlumatları açıqlaması tələb olunur. Lakin qanun planlaşdırma və ya ƏMTQ prosesi ilə bağlı ictimaiyyətin cəlb olunmasını xüsusi olaraq nəzərdə tutmur.

BMT-nin İnkişaf Proqramı (UNDP) ƏMTQ üçün de-fakto olaraq təlimat kimi istifadə olunan Azərbaycan üzrə ƏMTQ Təlimatını (1996-cı il) təqdim etmişdir ki, onun təlimatı ilə hazırlanan ƏMTQ-lər ETSN tərəfindən qəbul olunur. Həmin sənəd ƏMTQ üzrə standart tələbləri, o cümlədən iş həcmlərinin müəyyən olunması, ictimaiyyətin iştirakı, məsləhətləşmələr və məlumatın açıqlanması, o cümlədən ətraf mühitə baxış kimi tələbləri müəyyən edir. Azərbaycan üzrə ƏMTQ Təlimatı (1996-cı il) ”ƏMTQ prosesində ictimaiyyətin əhəmiyyətli iştirakını” tələb edir. Lakin bunun daha çox ƏMTQ sənədinin açıqlanması və ona rəy verilməsi imkanını əhatə etməsi vasitəsi olduğu görünür. O, iş həcmlərinin müəyyən edilməsinə ictimaiyyətin cəlb olunmasını tələb etmir. Lakin icma qrup nümayəndələri dəvət olunduqları halda, onlara həmin prosesdə də iştirak edə biləcəkləri təklifi irəli sürülür.

Azərbaycanda ƏMTQ prosesinə əsasən, ilkin ƏMTQ-lərin ictimaiyyətə açıqlanması və ictimai görüşlər keçirilir, lakin bu layihədən-layihəyə dəyişir.

Azərbaycan 2000-ci ildə Ekoloji informasiyadan istifadə imkanı, ətraf mühit məsələləri barədə qərarların verilməsində ictimaiyyətin iştirakını və məhkəməyə müraciət etmək hüququnu təmin edən Orhus Konvensiyasına qoşulmuşdur – 1998-ci il (Orhus Konvensiyası). Orhus Konvensiyası yerli, milli və xarici ətraf mühit məsələləri ilə bağlı informasiyadan istifadə imkanı, hökumət qərarlarının verilməsi proseslərində ictimaiyyətin iştirakı və məhkəməyə müraciət etmək üçün ictimai hüquqları təmin edir. O, ictimaiyyət və dövlət orqanları arasındakı qarşılıqlı əlaqələrə diqqət yönəldir.

*Torpağın satın alınması /satınalma zamanı məsləhətləşmələr*

Azərbaycanın ”Satınalma Qanunu” (Dövlət Ehtiyacları üçün Torpağın Satın alınmasına dair Qanun No. 987 İİİ-Q 2010) layihələr üçün torpaq və əmlakın əldə olunması və satın alınmasını tənzimləyir. Satınalma Qanunu, təsirə məruz qalmış tərəfləri torpaq və əmlak itkisinə görə kompensasiya etməyi, torpağın satın alınması ilə təsirə məruz qalan insanların yaşayış vasitələri və yaşayış şəraitlərini bərpa etməyi və ya (mümkün olduqda) yaxşılaşdırmağı məqsəd qoyan Beynəlxalq Maliyyə İnstitutlarının tələblərinə cavab vermək üçün işlənib hazırlanmışdır. Qanuni və ya heç bir qanuni hüququ olmayan, yaşadıqları torpaq sahəsi və sahibi olduqları əmlak üçün sənədləri olan və ya olmayan təsirə məruz qalan hər iki şəxslər (və biznes təsərrüfatları) Satınalma Qanunun müddəalarına əsasən nəzərdə tutulur.

Qanuna əsasən torpağın satın alınması prosesində təsirə məruz qalan tərəflər ilə məsləhətləşmələr, o cümlədən ictimai görüşlər və birbaşa qarşılıqlı əlaqə tələb olunur. Bu prosesin idarə olunması üçün Torpağın Satın Alınması və Köçürülmə Komissiyası (Mad. 22) yaradılmışdır. Bu Layihə üçün o, əsasən Şəmkir, Tovuz,

Ağstafa və Qazax rayonlarında olmaqla rayon səviyyəsində yaradılmışdır. Bu səviyyədən Bələdiyyə qurumları və layihənin təsirinə məruz qalan insanlar ilə məsləhətləşmə aparılır. Bütün maraqlı tərəflərin bilavasitə cəlb olunduğu proses zamanı təsirə məruz qalan insanların və torpağın siyahıya alınması aparılmışdır. Satınalma Qanununun 40-cı Maddəsinə əsasən Layihənin təsirinə məruz qalan şəxslərin daxil olduğu Köçürülmə Komissiyası yaradılmalıdır. Bu Köçürülmə Komissiyasının funksiyasına aşağıdakılar daxildir:

- Köçürülmə Planının hazırlanması və həyata keçirilməsində iştirak etmək.
- Layihənin Təsirinə Məruz Qalan Şəxsləri (LTMQŞ) maraqlandıran məsələlər haqda Satınalma Orqanlarına, TAK Komissiyasına və s. məlumat vermək. Bu maraqların qorunması üçün nəzərdə tutulan digər tədbirləri görmək.

Burada həmçinin  proses zamanı təsirə məruz qalan insanların şikayət və məsələlərini qaldırmasına imkan verən mexanizm də mövcuddur. Qanun ilk olaraq torpağın razılaşdırılmış müqavilə yolu ilə əldə olunmasına imkan verir, sonra isə bu alınmazsa, onun satın alınmasını nəzərdə tutur.

Kompensasiyanın dostcasına saziş ilə əldə oluna bilmədiyi hallarda şikayətlər üzrə prosedurdan istifadə edilə və qərar verməsi üçün məhkəməyə müraciət oluna bilər.

**AYİB-in Siyasi Çərçivəsi**

Layihə AYİB-in 2014-cü il Ətraf Mühit və Sosial Siyasətinə əsasən A Kateqoriya layihə kimi təsnif olunmuşdur.

Layihə AYİB-in Ekologiya və Sosial Siyasətində (2014), onun İctimai İnformasiya Siyasətində (2014-cü il) və İcra Tələblərində (İT) göstərildiyi kimi, maraqlı tərəflərin cəlb olunması və ictimai məsləhətləşmə üzrə tələblərə cavab verməlidir. [12] Maraqlı Tərəflərin Qarşılıqlı Əlaqə Planı (MTQƏP) Siyasətin İT10-a (İnformasiyanın Açıqlanması və Maraqlı Tərəflərin Qarşılıqlı Əlaqəsi) uyğun olaraq hazırlanmışdır.

İT10-a əsasən AYİB tələb edir ki, maraqlı tərəflər ilə qarşılıqlı əlaqə aşağıdakıları əhatə edən davamlı prosesdir:

- Maraqlı tərəflər ilə əhəmiyyətli məsləhətləşmələrə imkan verə bilməsi üçün müvafiq məlumatların ictimaiyyətə açıqlanması;
- Potensial təsirə məruz qalan tərəflər ilə mühüm məsləhətləşmə; və
- İnsanların rəy və ya şikayət verə biləcəyi (şikayətlərə baxılması mexanizmi) prosedura və ya siyasət.

Azərbaycanda ətraf mühitin qiymətləndirilməsi prosesində ictimai iştirak, cəlb olunmaya dair qanunun müddəaları və AYİB-in tələbləri arasında boşluqlar var. Bu boşluqları nəzərə almaq üçün layihənin planlaşdırma sənədləri və bu MTQƏP-də göstərilmiş nəzərdə tutulan məsləhətləşmə hazırlanmışdır.

# 4. ƏVVƏLKİ MARAQLI TƏRƏFLƏRLƏ QARŞILIQLI ƏLAQƏ

M-2 Yolunun Genişləndirilməsi Layihəsi üzrə Gəncə-Qazax ƏMTQ-nin bir hissəsi kimi (yəni, Gəncədən-Qazağa qədər ƏMTQ) və davam etməkdə olan torpağın satın alınması prosesi ilə bağlı bu günə kimi aparılan ictimaiyyətlə qarşılıqlı əlaqə fəaliyyətləri bu fəaliyyətlərə qədər məhdudlaşdırılmışdır. Bunlar aşağıda qısa şəkildə təsvir olunur:

**Əvvəlki ƏMTQ ilə bağlı Qarşılıqlı Əlaqə Fəaliyyətləri**

Gəncə-Qazax ƏMTQ-nin bir hissəsi kimi, 2011-ci ilin fevral ayında Layihə sahəsinin dörd rayonunda ilkin məsləhətləşmə görüşləri keçirilmişdir. İlkin layihə təqdim olunmuş, eləcə də dolayı yol bölmələrinin nəzərdə tutulan marşrutları və dolayı yolun birləşmə variantları üzrə ƏM və SS üzrə qiymətləndirmənin icmalı təqdim edilmişdir. Yerli sakinlərdən gələn rəylərə yeraltı/yerüstü keçidlərin sayı və yol kəsişmələri ilə bağlı narahatlıqlar daxil idi. Gəncə-Qazax yolu üzrə ilkin ƏMTQ sonra eyni dörd yerdə 2012-ci ilin avqust ayında

[1] http://www.ebrd.com/news/publications/policies/environmental-and-social-policy-esp.html

[2] http://www.ebrd.com/what-we-do/strategies-and-policies/public-information-policy.html

ictimai görüşlərdə açıqlanmışdır. Əvvəlki şikayətləri nəzərə almaqla, işçi layihə təzələnmiş və ƏMTQ-nin son nəticələri təqdim edilmişdir. Bu görüşlər Gəncə-Qazax Yolunun ƏMTQ-də qeyd edilmişdir.

M-2 yolunun genişləndirilməsi layihəsinin Qazaxdan Gürcüstan sərhədinə qədər hissəsinin layihə variantı üzrə bənzər görülər bu günə kimi aparılmamışdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) xahişi ilə bu Layihə üçün Gəncədən Gürcüstan sərhədinə qədər M-2 yolunun genişləndirilməsini əhatə edən birləşdirilmiş Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi sənədi hazırlanmışdır. Bu "birləşdirilmiş ƏMTQ" 2015-ci ildə ETSN tərəfindən təsdiqlənmişdir. Bununla belə, birləşdirilmiş ƏMTQ-nin bir hissəsi kimi ictimai məsləhətləşmələr yerinə yetirilməmişdir. Bu MTQƏP indi həm bu birləşmiş ƏMTQ ilə bağlı məsləhətləşmələrin aparılmasını, həm də “Azəravtoyol” və AİYB tərəfindən ictimaiyyətə açıqlanmasını təsvir edir.

**Torpağın satın alınması ilə əlaqədar məsləhətləşmələr və qarşılıqlı əlaqə**

Rayon və bələdiyyə səviyyəsində torpağın satın alınması prosesi ilə bağlı məsləhətləşmələr davam etməkdədir. Torpağın satın alınması və köçürülmənin planlaşdırılması prosesi üçün ailə təsərrüfatlarının siyahıya alınması zamanı da Layihənin təsirinə məruz qalan şəxslərlə birbaşa qarşılıqlı əlaqə yaradılmışdır. Bu proses hazırda üç rayon, Şəmkir, Tovuz və Ağstafa rayonlarında Qazax rayonundan daha çox inkişaf etmişdir. Başa düşüldüyü kimi, bu 3 rayonda ictimaiyyətlə bəzi görüşlər keçirilmiş və hazırda keçirilmə prosesindədir.

## 5. MARAQLI TƏRƏFLƏRİN, ƏLAQƏ ÜSULLARININ VƏ QARŞILIQLI ƏLAQƏ PLANININ MÜƏYYƏN EDİLMƏSİ

Maraqlı tərəflərlə qarşılıqlı əlaqə Layihənin gələcək planlaşdırılması, tikintisi və istismarı dövründə davam edən tədbir olacaq. Aşağıdakı Cədvəl 1-də Layihənin əsas "kənar" və "daxili" maraqlı tərəflər qrupları təsvir edilmiş və bu günə kimi müəyyən edilmiş ayrı-ayrı maraqlı tərəflərin icmalı, o cümlədən hər bir qrupda istifadə ediləcək əlaqə məqsədi və üsulları verilmişdir. Qarşılıqlı əlaqə üçün cari vaxt qrafiki cədvəldə göstərilmişdir.

Siyahısı verilmiş maraqlı tərəflərin (və digər müəyyən edilmiş şəxslərin) tam əlaqə məlumatları “Azəravtoyol” tərəfindən MTQƏP-nin hazırlanmasının növbəti mərhələsində daxil ediləcək. Əlavə maraqlı tərəflər də aşkar edilə bilər və “Azəravtoyol” tikinti işləri başlamazdan əvvəl bu MTQƏP-nı təzələyəcək. Layihənin Təsirinə Məruz Qalan Şəxslərin (LTMQŞ) təsdiqi və Layihə üçün torpağın satın alınması üzrə maraqlı tərəflər bütün müvafiq məlumatlar toplandıqdan və siyahı başa çatdırıldıqdan sonra mümkün olacaq.

## MARAQLI TƏRƏFLƏRLƏ QARŞILIQLI ƏLAQƏ ÜZRƏ TƏDBİRLƏR PLANI(MARAQLI TƏRƏFLƏR QRUPU, ƏLAQƏ ÜSULLARI, FƏALİYYƏTLƏR VƏ VAXT CƏDVƏLİ)

| № | Maraqlı tərəflər qrupu | Maraqlı tərəflər | Əlaqənin məqsədi | Əlaqə üsulu və fəaliyyətlər | Qarşılıqlı əlaqələrin/məsləhə tləşmələrin təxmini vaxtı |
|---|---|---|---|---|---|
| **Kənar maraqlı tərəflər** | | | | | |
| **YERLİ MARAQLI TƏRƏFLƏR:** | | | | | |
| 1 | Layihənin Təsirinə Məruz Qalan Şəxslər (LTMQŞ): Yerli İcmalar/şosse boyu yerləşən şəhər və kəndlərin [3]sakinləri: | Layihənin təsirinə məruz qalmış yerli icmaların (əksəriyyəti rayonlar üzrə verilmişdir) bələdiyyələrin rəhbərləri/nümayəndələri ("Yerli Orqanlar" adlı siyahıya baxın).<br>**Şəmkir rayonu:** o cümlədən Könüllü, Seyfəli, Çinarlı, Keçili, Şəmkir şəhəri, Dəllər, Dəllər Cəyir, Dəllər Cırdaxan, Çaparlı, Təzəkənd, Daşbulaq, Zəyəm, Düyərli, Bayramlı, Sabirkənd.<br>**Tovuz rayonu:** o cümlədən Aşağı Ayıblı, Alakol, Düz Qırıqlı, Dönük Qırıqlı Qovlar, Quşçu, Bozalqanlı, Tovuz şəhəri, Düz Kirdaxan, Aşağı Mülkülü, Xatınlı<br>**Ağstafa rayonu,** o cümlədən Köçəgər, Vurğun, Aqstafa şəhəri, Həsənsu, Kirili<br>**Qazax rayonu:** o cümlədən Dağ Kəsəmən, Qazax şəhəri, Çaylı, Qazaxbəyli, Kosalar, Daş Salahlı, Orta Salahlı, Yuxarı Salahlı, I Şıxlı, II Şıxlı, Sınıq Körpü (Sərhəd məntəqəsi) | • Layihənin mahiyyətinə, Layihənin müddətinə, ətraf mühitə, sosial sahəyə və iqtisadiyyata, o cümlədən tikinti müddətində və başa çatdırılmış Layihənin təkmilləşdirilmiş xidmətləri ilə yerli girişin təşkilinə mümkün təsirlərə aid məlumat.<br>• İcmanın Layihənin hazırlanmasına və ya tətbiqinə fəal cəlb edilməsi imkanı.<br>• Təklif və şikayətlərin təqdim edilməsi mexanizmi.<br>• Mümkün keçid fasiləsi təsirlərinin (məs. Layihənin mövcud yolların kəsişməsi və istiqaməti dəyişməsi nəticəsində artmış səfər müddəti) və icmanın | **Tikintidən əvvəl görüşlər:** LTMQŞ və bütün Maraqlı tərəflər qrupu ilə (siyahısı bu cədvəldə verilmişdir) görüşlər Layihənin tətbiq edildiyi bütün müddət ərzində keçiriləcək, xüsusilə, tikinti başlamazdan əvvəl Layihənin təsirinə məruz qalmış 4 Rayonun - Şəmkir, Tovuz, Ağstafa və Qazax - İcra hakimiyyətinin binalarında ictimaiyyətlə məsləhətləşmə görüşləri planlaşdırılır; bu ictimaiyyətlə məsləhətləşmə görüşlərinin yeri və təfərrüatı Rayonların icra hakimiyyətləri ilə müzakirədə təsdiq ediləcək. Bu görüşlər həmçinin hər bir Rayonda təsirə məruz qalmış Bələdiyyələrlə əməkdaşlıqla təşkil ediləcək, həmçinin mövcud yol boyu yerləşən bizneslərin sahibləri də görüşlərə dəvət olunacaq. Gəncə rayonu icra hakimiyyətinin ofislərində də görüş keçiriləcək.<br>Bu görüşlərdə Qeyri-texniki Xülasə hazır olacaq və aşağıdakı mövzuları əhatə edən təqdimat ediləcək: Layihənin işçi dizaynı, tikinti qrafiki və işçi qüvvəsinin təşkili; Nəzərdən keçirilmiş marşrut variantları və seçilmiş son marşrut; Yerli giriş üçün təklif edilmiş yeraltı keçidlərin, estakadaların, yol birləşmələrinin və yerli xidmət yollarının yerləri; QTX-də xülasəsi verildiyi kimi, ətraf mühitə və sosial sahəyə təsirin və təklif edilən təsirazaltma tədbirlərinin xülasəsi; Layihə üçün, Torpaq alınması və | • Layihənin icarası müddətində<br>• **Tikintidən əvvəlki qarşılıqlı əlaqələr:** *Qeyri-Texniki Xülasə (QTX) və yerli girişin təşkilinə dair işçi layihə məlumatı və s. ilə: 2016-cı ilin 3cü rübündən başlayaraq 2017-ci ilin 2ci rübündə başa çatdırılması planlaşdırılır.*<br>• **Tikinti zamanı qarşılıqlı** |

[3] Marşrut boyunca cədvəldə göstərilən əsas şəhərlər və kəndlər, amma kiçik yaşayış məntəqələri (və digər icmalar) hətta cədvəldə olmasa belə məsləhətləşmə planına daxil edilməlidir. Şəhər və kənd adlarının yazılışı tərcümə səbəbindən layihə sənədləri və xəritələrdə qismən fərqli ola bilər.

| № | Maraqlı tərəflər qrupu | Maraqlı tərəflər | Əlaqənin məqsədi | Əlaqə üsulu və fəaliyyətlər | Qarşılıqlı əlaqələrin/məsləhətləşmələrin təxmini vaxtı |
|---|---|---|---|---|---|
| | | | təhlükəsizliyi ilə bağlı hər hansı məsələlər.<br>• Layihənin təkmilləşdirilmiş iki istiqamətli avtomagistralından istifadə edən kəndlərdə yol təhlükəsizliyi ilə bağlı məlumatlılığının artırılması. | köçürülmə məsələləri üçün şikayətlərin həll edilməsi mexanizmi; Torpaq satın alınması və köçürülmə prosesinin xülasəsi.<br><br>İctimaiyyətə görüşlərin vaxtına, tarixinə və yerlərinə dair məlumat çatdırmaq üçün yerli kütləvi informasiya vasitələrində (yəni qəzet və radioda) lazımi elanlar veriləcək. İctimaiyyətlə görüşlərə dair elanlar həmçinin Layihə yolu boyu təsirə məruz qalan Bələdiyyələrin nümayəndələrinə göndəriləcək.<br><br>**Əlaqə üsulu və fəaliyyətlər:**<br>• Kütləvi informasiya vasitələri (elanlar) (yəni yerli qəzet və radio), o cümlədən "Azəravtoyol"un internet saytı vasitəsilə məlumat vermə.<br>• Şəmkir, Tovuz, Ağstafa və Qazax rayonlarında, həmçinin Bələdiyyələrdən istifadə etməklə birbaşa məlumatın verilməsi.<br>• Rayon icra hakimiyyəti mərkəzlərində (yəni Şəmkir, Tovuz, Ağstafa və Qazax) ictimaiyyətlə görüşlər.<br>• Qarşılıqlı əlaqə üsulu kimi mövcud icma strukturlarından (məs. Bələdiyyə nümayəndələri) istifadə ediləcək.<br>• Siyahıya alma və torpaq satın alma prosesləri zamanı birbaşa təsirə məruz qalan ailə təsərrüfatları ilə fərdi görüşlər/qarşılıqlı əlaqə.<br>• Məlumat lövhələri (icmalarda məqsədəuyğun yerlərdə quraşdırılmış) vasitəsilə əlaqə və bu lövhələrdə layihəyə dair məlumatın/bildirişlərin asılması. Layihə haqqında (məs., QTX, MTQƏP və KP) məlumat "Azəravtoyol"un internet saytında | **əlaqələr:** *2017-ci ilin 3$^{cü}$ rübündə başlayaraq tikinti boyu davam etməsi (yəni 3 il) planlaşdırılır.*<br>• Layihə yolunun istismarı zamanı: qarşılıqlı əlaqələr tikintinin başa çatmasından sonra davam edəcək. |

| № | Maraqlı tərəflər qrupu | Maraqlı tərəflər | Əlaqənin məqsədi | Əlaqə üsulu və fəaliyyətlər | Qarşılıqlı əlaqələrin/məsləhətləşmələrin təxmini vaxtı |
|---|---|---|---|---|---|
| | | | | (http://www.azeravtoyol.gov.az/az ) və AYİB-in internet saytında (http://www.ebrd.com/home ) verilmişdir.<br>• Marşrut boyu yerləşən icmalar və uşaqlar üçün yol tikintisi işlərinə və bu işlərlə bağlı təhlükələrə dair səciyyəvi məlumat. "Azəravtoyol" və Podratçı Layihə üçün tikintinin təhlükələrinə dair sadə məlumat materialları hazırlayacaq, sadə mətnlərdən və cizgilərdən ibarət olan yol təhlükəsizliyinə dair nişanlar mümkün qədər uzaq məsafəyə qədər quraşdırılacaq. Bunlar Bələdiyyə/icma yığıncaqlarında və məktəblər vasitəsilə (mümkündürsə) paylanacaq. Yol təhlükəsizliyi və tikintidə təhlükəsizliklə və s. ilə bağlı yerli icmaların maarifləndirilməsi məsələsində Rayonu İcra Hakimiyyətinin və Bələdiyyələrin dəstəyi lazım olacaq.<br>• Məsləhətləşmələr Azərbaycan dilində aparılacaq və məlumat adətən Azərbaycan dilində hazırlanacaq. | |
| 2 | Layihənin təsirinə məruz qalan yerli icmalarda/kəndlərdə risk qrupları və az gəlirli qruplar: | Aşağıdakıların daxil olduğu təsirə məruz qalan və sosial baxımdan az gəlirli qruplar Layihənin siyahıya alınma və məsləhət mərhələlərində müəyyən ediləcək:<br>• Marşrut boyu yerləşən icmalarda yaşayan və girişi və/yaxud torpağı Layihənin təsirinə məruz qalan qocalar və çox aşağı gəlirli ailə təsərrüfatları<br>• Qadınlar və uşaqlar.<br>Davam edən siyahıyaalma və Köçürülmə planının işlənməsi prosesindən əldə edilmiş məlumat nəzərdən keçirilməklə, aşkar edilən digər təsirə məruz qalan və sosial baxımdan | • *Yuxarıda göstərilmiş Qrup №* 1 üçün qeyd edildiyi kimi, o cümlədən təsirə məruz qalan və sosial baxımdan az gəlirli qrupların Layihəyə dair məlumatı əldə etmələrinə və qarşılıqlı əlaqə prosesində iştirak etmələrinə imkan vermək üçün onlara yönəlmiş qarşılıqlı əlaqə üsullarını tətbiq etmək. Məqsəd bu qrupların Layihənin | *Yuxarıdakı Qrup 1-də qeyd edildiyi kimi tikintidən əvvəlki görüşlər.*<br>**Əlaqə üsulu və fəaliyyətlər:**<br>Azəravtoyol (və Tikinti zamanı Podratçı) mümkün təsirə məruz qalan və sosial baxımdan az gəlirli qruplarla qarşılıqlı əlaqə yaratmaq üçün hədəfli tədbirlər qəbul edəcək. Rayon və Bələdiyyə səviyyəsində siyahıya alma və davam edən məsləhətləşmələr risk qrupları ilə onların icmalarında qarşılıqlı əlaqə yaratmanın yaxşı üsuludur.<br>Bu qrup üçün üsullar hər bir Rayonda tikintidən əvvəl aparılan QTX-ə dair məsləhətləşmə görüşləri zamanı dəqiqləşdiriləcək. | *Qrup 1 üçün göstərildiyi kimi*<br>• Köçürülmə Planının hazırlanması zamanı tələb olunan hər hansı əlavə köçürülməyə yardıma dair məlumat vermək üçün təsirə məruz |

| № | Maraqlı tərəflər qrupu | Maraqlı tərəflər | Əlaqənin məqsədi | Əlaqə üsulu və fəaliyyətlər | Qarşılıqlı əlaqələrin/məsləhə tləşmələrin təxmini vaxtı |
|---|---|---|---|---|---|
| 3 | | az gəlirli qruplar əlavə ediləcək. | həddindən artıq təsirinə məruz qalmasına yol verməməkdir. Lazım gələrsə, səciyyəvi yardım tədbirləri aşkar edilə və tətbiq oluna bilər. | • Təsirə məruz qalmış icmalarda risk qrupları ilə səciyyəvi qrup görüşləri keçiriləcək - yəni “Azəravtoyol”un MTQƏP-nin tətbiq edilməsinə cavabdehlik daşıyan Layihə heyəti icmalarda risk altında olan ailə təsərrüfatları ilə birbaşa, xüsusilə, hər hansı əlavə yardım tələbini müəyyən etmək üçün onların torpağına və girişin təşkilinə təsirlərə dair qarşılıqlı əlaqəni həyata keçirəcək. Bu məlumatdan həmçinin Köçürülmə planına dair məlumat vermək üçün də istifadə ediləcək.<br>• İctimai görüşlərdə iştirak etmək və ya digər icmalara getmək istəməyən qadınlarla əlaqə yaratmaq məqsədilə mədəni baxımdan məqsədəuyğun mexanizmlər və yanaşma üsulları – “Azəravtoyol” (və Podratçı) bu icmalarla əlaqə yaradan yerli Bələdiyyələrin dəstəyi və məsləhəti üçün müraciət edəcək və (mümkün qədər) belə qruplarla mövcud qarşılıqlı əlaqə üsullarından və kanallarından istifadə edəcək. | qalmış həssas ailə təsərrüfatları ilə birbaşa qarşılıqlı əlaqə yaradılacaq. Köçürülmə planı tikinti başlamazdan əvvəl hazırlanmalı və tətbiq edilməlidir. Ona görə də, bu məsləhətləşmələrin 2016-cı ilin 2ci rübündən 2017-ci ilin 2ci rübünə qədər keçiriləcəyi ehtimal edilir. |
| 3 | *Fiziki və/yaxud iqtisadi köçürülməyə məruz qala biləcək Layihə üçün alınan torpaq və vəsaitlərin sahibləri və istifadəçiləri* | Yerli sakinlər və yerli bizneslər/şirkətlər<br>*(Hazırda hər rayon üçün davam edən torpağın satın alınması və köçürülmənin planlaşdırılması prosesinin bir hissəsi kimi təsdiq edilir).* | • Vəsaitlərin - o cümlədən binaların satınalınması üçün Köçürülmə planının (KP) tələblərinin planlaşdırılması və həyata keçirilməsi.<br>• Təsirə məruz qalmış tərəflərlə (o cümlədən, Layihənin təsirinə məruz qalan, qanuni hüquqları və sənədləri olan və olmayan | • Davam edən siyahıya alma və əmlakların qiymətləndirilməsi bu qrupla əlaqə və münasibət yaradılmasını tələb edəcək.<br>• Bu qrupun nümayəndələrinin daxil olduğu Köçürülmə komissiyası yaradılacaq (Satınalma qanununun 40-cı Maddəsi ilə tələb olunduğu qaydada). Onun rolu qanunda göstərildiyi kimi olacaq və aşağıdakıları əhatə edəcək:<br>  • Köçürülmə Planının hazırlanması və həyata keçirilməsində iştirak etmək. | • Torpağa giriş ancaq kompensasiya ödəndikdən sonra mümkün olacaq, ona görə də, KP 2017-ci ilin 3cü rübündə başlanması |

| № | Maraqlı tərəflər qrupu | Maraqlı tərəflər | Əlaqənin məqsədi | Əlaqə üsulu və fəaliyyətlər | Qarşılıqlı əlaqələrin/məsləhətləşmələrin təxmini vaxtı |
|---|---|---|---|---|---|
| | *(qanuni hüququ olanlar və hüququ olmayanlar da daxil olmaqla).* | | torpaq sahibləri və istifadəçiləri) torpağın satınalınması, girişin itirilməsi və həyat tərzinin bərpa edilməsi üçün MTQƏP və Azərbaycan Satınalma Qanununa uyğun ödəniləcək kompensasiya haqqında birbaşa məsləhətləşmə aparmaq və KP-na dair məlumat vermək.<br>• Təklif və şikayətlərin təqdim edilməsi mexanizmi. | • Satınalma orqanlarına, TSA Komissiyasına və s. layihənin təsirinə məruz qalan şəxslərə onları maraqlandıran məsələlər haqqında məlumat vermək. Bu maraqların qorunması üçün nəzərdə tutulan digər tədbirləri görmək.<br>• Layihənin tutacağı sahələrin, təsirə məruz qalan torpaq və aktivlərin təfərrüatlı sahəsini, siyahıya almanın və əmlakın qiymətləndirilməsinin nəticələrini təqdim etmək, Köçürülmə planına uyğun ödənişlərin şablonunu və kompensasiyanın növ və üsullarını təqdim etmək üçün Köçürülmə planının hazırlanması ilə bağlı məsləhətləşmə görüşləri. Məsləhətlər müəyyən səciyyəvi məsələlərlə, o cümlədən aşağıdakılarla bağlı keçiriləcək: torpağa girişə təsir (məs. tikinti və istismar zamanı kənd təsərrüfatı məqsədli torpaq), və s.<br>• Satınalma prosesinin bir hissəsi kimi Azərbaycan qanununa uyğun fərdi görüşlər. | nəzərdə tutulmuş tikintidən əvvəl hazırlanmalı və həyata keçirilməlidir.<br>• Təsirə məruz qalmış torpaqların (və əmlakın) sahibləri və istifadəçiləri ilə bağlı məsləhətləşmə görüşləri artıq aparılır və onun 2017-ci ilin 2ci rübünün sonuna qədər davam edəcəyi ehtimal edilir. |
| 4 | Bizneslər/Şirkətlər | *Qrup 3-ə torpağın satın alınması ilə birbaşa təsirə məruz qalmış bizneslər/şirkətlər daxildir.*<br>Yerli bizneslər və şirkətlər, o cümlədən:<br>• Yerli icmalar daxilində (yəni Qrup 1) olan və mövcud M-2 yolundan istifadə edən biznes fəaliyyətləri və şirkətlər. Buraya yol kənarı bizneslər (məs., restoranlar, kafelər və mağazalar) və satıcılar, həmçinin torpaqlarına giriş üçün yoldan | • Layihənin hazırlanması və həyata keçirilməsindən yaranan yeni şəraitlərə uyğunlaşmaq üçün yoldan istifadəyə dair məlumat.<br>• Biznes fəaliyyətinə mümkün təsirlərin, o cümlədən tikinti və istismar dövründə girişə dəyən təsirin müzakirəsi.<br>• Təklif və şikayətlərin təqdim | *Yuxarıdakı Qrup 1-də qeyd edildiyi kimi, tikintidən əvvəlki görüşlər.*<br>**Əlaqə üsulu və fəaliyyətlər:**<br>• "Azəravtoyol" Rayon İcra Hakimiyyəti ilə müzakirələrlə hər rayon üzrə təsirə məruz qalan və maraqlı bizneslərin/şirkətlərin siyahısını hazırlayacaq.<br>• Yolun tikintisi başlamazdan əvvəl biznes sahibləri ilə görüş.<br>• Tikinti işləri başlamazdan ən azı iki həftə əvvəl yerli və milli mətbuatda elanlar. | • Layihənin həyata keçirilməsi müddətində<br>• **Tikintidən əvvəl qarşılıqlı əlaqələr:** *Qeyri-Texniki Xülasə (QTX) və girişin* |

| № | Maraqlı tərəflər qrupu | Maraqlı tərəflər | Əlaqənin məqsədi | Əlaqə üsulu və fəaliyyətlər | Qarşılıqlı əlaqələrin/məsləhətləşmələrin təxmini vaxtı |
|---|---|---|---|---|---|
| | | asılı olan torpaq istifadəçiləri daxildir.<br>• Layihənin tikintisi üçün xidmətlər, avadanlıq və material (məs. qum, sement, asfalt və s.) təchiz edə biləcək yerli bizneslər/şirkətlər.<br>• Əmlakları Layihənin təsirinə məruz qala biləcək yerli kommunal xidmətlər (məs., su və kanalizasiya, elektrik və qaz və s.). BTC boru kəməri üçün cavabdehlik daşıyan milli şirkətlə də əlaqə yaradılacaq. | edilməsi mexanizmi. | • Layihə haqqında (məs. QTX, MTQƏP və KP(mövcud olduğu hallarda)) məlumat "Azəravtoyol"un internet saytında (http://www.azeravtoyol.gov.az/az ) və AYİB internet saytında (http://www.ebrd.com/home ) verilmişdir. | *təşkilinə dair işçi layihə məlumatı və s. ilə: 2016-cı ilin 3cü rübündən başlayaraq, 2017-ci ilin 2ci rübündə başa çatdırılması planlaşdırılır.*<br>• **Tikinti zamanı qarşılıqlı əlaqələr:** *2017-ci ilin 3cü rübündə başlayaraq tikinti boyunca davam etməsi (yəni 3 il) planlaşdırılır.*<br>• Layihə yolunun istismarı zamanı: qarşılıqlı əlaqələr tikintisinin sona çatmasından sonra davam edəcək. |
| **Yerli orqanlar:** | | | | | |

| № | Maraqlı tərəflər qrupu | Maraqlı tərəflər | Əlaqənin məqsədi | Əlaqə üsulu və fəaliyyətlər | Qarşılıqlı əlaqələrin/məsləhətləşmələrin təxmini vaxtı |
|---|---|---|---|---|---|
| 5 | Rayonlar[4] | • Şəmkir Rayon İcra Hakimiyyəti<br>• Tovuz Rayon İcra Hakimiyyəti<br>• Ağstafa Rayon İcra Hakimiyyəti<br>• Qazax Rayon İcra Hakimiyyəti<br>• Gəncə Rayon İcra Hakimiyyəti | • Layihənin planlaşdırılması və həyata keçirilməsi<br>• Marşrut boyu Bələdiyyələrlə, icmalarla və biznes qurumları ilə ictimai məsləhətləşmələr.<br>• Rayon İcra hakimiyyətlərindən və Bələdiyyələrdən torpağın satın alınması və köçürülmənin planlaşdırılması, yerli icmalarla, o cümlədən təsirə məruz qalan və sosial baxımdan az gəlirli qruplarla qarşılıqlı əlaqələr yaradılması ilə bağlı yardımın xahiş edilməsi (yuxarıdakı Qrup 2-yə bax).<br>• Təklif və şikayətlərin təqdim edilməsi mexanizmi. | *Yuxarıdakı Qrup 1-də qeyd edildiyi kimi, tikintidən əvvəlki görüşlər.*<br>**Əlaqə üsulu və fəaliyyətlər:**<br>• Torpağın satın alınması və köçürülmə Komissiyası.<br>• Rəsmi yazışma və müntəzəm məlumatın təzələnməsi görüşləri.<br>• Rayon İcra Hakimiyyəti ilə əməkdaşlıqda Bələdiyyə nümayəndələrini ictimaiyyətlə görüşlərə dəvət edilməsi və onlara icma üzvləri, torpaq sahibləri; şirkətlər, təsirə məruz qalmış qruplar və s. ilə görüşlərə dair son məlumatların verilməsi.<br>• Məlumat lövhələri vasitəsilə əlaqə saxlanması (Bələdiyyə mərkəzlərində və müəyyən icmalarda quraşdırılmış).<br>• Layihə haqqında (məs. QTX, MTQƏP və KP(mövcud olduğu hallarda)) məlumat "Azəravtoyol"un internet saytında (http://www.azeravtoyol.gov.az/az ) və AYİB-in internet saytında (http://www.ebrd.com/home ) verilmişdir. | • Layihənin həyata keçirilmə dövrü ərzində - artıq başlamışdır və davam edəcək. |
| 6 | Bələdiyyələr (4 təsirə məruz qalmış rayonda) | • Şəmkir rayonu - Bələdiyyələr: Abbaslı, Aşağı Seyfəli;<br>• Çinarlı; Təzəkənd, Füzuli (Əzizbəyov); Yeni Həyat; Muxtariyyə; Şəmkir şəhəri (Aşıq Teymur); Əliyaqublu; Çaparlı; Cırdaxan; Dəllər-Cəyır; Şəmkir şəhəri (Nərimanov); Sabirkənd; Zəyəm və Düyərli.<br>• Tovuz rayonu - Bələdiyyələr: Ayıblı; Düz Qırıqlı; Qəribli; Dönük Qırıqlı; Qovlar; Aşağı Quşçu; Donalar Quşçu; Bozalqanlı; Qaraxanlı; Xatınlı; Abulbəyli; Düz Cırdaxan; Cəlilli; və Əsrik Cırdaxan.<br>• Ağstafa rayonu - Bələdiyyələr: Qoçəsgər; Eynallı; Kirli; Həsənsu; Səməd Vurğun; Dağ Kəsəmənli; və Qarahəsənli.<br>• Qazax rayonu - Bələdiyyələr: Ağköynək; Hüseynbəyli-Canəli; Kosalar; Qazaxbəyli; Orta Salahlı; Daş Salahlı; Yuxarı Salahlı; | | | |

[4] Bölmə 6-da göstərilən əlaqə məlumatları.

| № | Maraqlı tərəflər qrupu | Maraqlı tərəflər | Əlaqənin məqsədi | Əlaqə üsulu və fəaliyyətlər | Qarşılıqlı əlaqələrin/məsləhətləşmələrin təxmini vaxtı |
|---|---|---|---|---|---|
| | | Aslanbəyli; I Şıxlı; və II Şıxlı. | | | |
| 7 | Yerli icma xidmətləri | • Fövqəladə Hallar Nazirliyinin Gəncə Rayon Mərkəzi.<br>Təsirə məruz qalmış 4 Rayonun (Şmkir, Tovuz, Aqstafa və Qazax) hər biri üçün xidmətlər:<br>• Fövqəladə xidmətlər: *Yanğınsöndürmə Briqadası və Polis (məs. Şəmkir Rayon Yanğınsöndürmə İdarəsi; Ağstafa Rayon Yanğınsöndürmə İdarəsi; və Qazax Rayon Yanğınsöndürmə İdarəsi).*<br>• Səhiyyə və sosial yardım xidmətləri.<br>• Kommunal xidmətlərin sahibləri və operatorları. | • Maraqlı tərəflər qruplarında Layihə ilə bağlı məlumatlandırma.<br>• Layihə yolunun tikintisi və istismarı zamanı xidmətlərin təchizinə təsir edə biləcək və əlaqələndirmə tələb edən məsələləri müəyyən etmək. | *Yuxarıdakı Qrup 1-də qeyd edildiyi kimi, tikintidən əvvəlki görüşlər.*<br>**Əlaqə üsulu və fəaliyyətlər:**<br>• Tikinti işləri başlamazdan əvvəl yerli və milli mətbuatda elanlar.<br>• Kütləvi informasiya vasitələri (elanlar) (yəni yerli qəzet və radio) vasitəsilə məlumat vermə.<br>• Rayonlar vasitəsilə birbaşa məlumat və Bələdiyyələrə paylama.<br>• Səciyyəvi məsələlərə dair rəsmi yazışma və görüşlər. Layihə haqqında (məs. QTX, MTQƏP və KP) məlumat "Azəravtoyol"un internet saytında (http://www.azeravtoyol.gov.az/az ) və AYİB-in internet saytında (http://www.ebrd.com/home ) verilmişdir. | |
| **Yerli Qeyri-hökumət Təşkilatları (QHT) və digər yerli təşkilatlar:** | | | | | |
| 8 | Yerli Qeyri-hökumət Təşkilatları (QHT) və digər yerli təşkilatlar | *"Azəravtoyol" maraqlı tərəfləri aşkar etdikcə, siyahı tərtib ediləcək və onlara aşağıdakılar daxil ediləcək:*<br>• Kənd təsərrüfatının inkişafı təşkilatları/Aqrobiznes assosiasiyaları.<br>• Su istifadəçiləri assosiasiyaları.<br>• Gəncəyə körpü.<br>• Odlar yurdu, Gəncə.<br>• Gəncə Regional Təhsil Şöbəsi<br>• Ekosəs.<br>• Sosial İnkişaf ictimai birliyi | • Bu təşkilatların yerli icmalara (təsirə məruz qalan qruplar) və yerli mühitə dair əsas məsələlərin aşkar edilməsinə yardım etmək imkanı var.<br>• Yerli QHT və digər təşkilatlara layihə işlərinə dair məlumat vermək.<br>• Bu təşkilatlar Layihənin təsirinə məruz qalmış yerli icmalara mümkün yardım tədbirlərini müəyyən etmək | *Yuxarıdakı Qrup 1-də qeyd edildiyi kimi, tikintidən əvvəlki görüşlər.*<br>**Əlaqə üsulu və fəaliyyətlər:**<br>• Kütləvi informasiya vasitələri (elanlar) (yəni yerli qəzet və radio) vasitəsilə məlumat verilməsi.<br>• Layihə haqqında (məs. QTX, MTQƏP və KP) məlumat "Azəravtoyol"un internet saytında (http://www.azeravtoyol.gov.az/az ) və AYİB-in internet saytında (http://www.ebrd.com/home ) verilmişdir.<br>• Rayon və Bələdiyyə mərkəzlərində ictimaiyyətlə | Layihənin həyata keçirildiyi müddət ərzində - 2016-cı ilin 3[cü] rübündən başlayaraq. |

| № | Maraqlı tərəflər qrupu | Maraqlı tərəflər | Əlaqənin məqsədi | Əlaqə üsulu və fəaliyyətlər | Qarşılıqlı əlaqələrin/məsləhətləşmələrin təxmini vaxtı |
|---|---|---|---|---|---|
| | | • Sağlam Həyat və İnkişaf cəmiyyəti<br>• Qazax regional İnkişaf Resursları ictimai birliyi<br>• *Qərb - Resurs İctimai birliyinin İnkişafa dəstək mərkəzi (Qazax ərazisində fəaliyyət göstərir).*<br>• Gəncə avtomobil nəqliyyatı xidmətləri - (həmçinin yerli avtobus operatorları və s.).<br>• Gəncə Kənd Təsərrüfatı Universiteti.<br>• Gəncə Dövlət Universiteti. | imkanına malikdirlər - məs., kənd təsərrüfatının inkişafı orqanları və aqrobiznes assosiasiyaları və s. | görüşlər. | |
| **MİLLİ MARAQLI TƏRƏFLƏR:** | | | | | |
| 9 | Azərbaycan Hökumət Orqanları | Nəqliyyat Nazirliyi. | • Rəsmi yazışmalar, görüşlər və təsdiqlər.<br>• Layihə sənədlərinin planlaşdırılması, hazırlanması, təsdiqi və Layihənin həyata keçirilməsi.<br>• Layihənin gedişinə dair müntəzəm hesabatlar. | • Rəsmi yazışma və müntəzəm görüşlər. | • Layihənin həyata keçirilməsi ərzində - artıq başlamışdır və davam edəcək. |
| | | Ekologiya və Təbii Sərvətlər Nazirliyi. | • Ətraf mühit amilləri ilə əlaqədar texniki sənədlərin/ƏMTQ və s. planlaşdırılması və hazırlanması.<br>• ƏMTQ-nin təsdiqi, ekoloji icazvələr və s. və digər zəruri təsdiqlər/rəylər.<br>• Dövlət ətraf mühit | • Rəsmi yazışma.<br>• Birbaşa görüşlər və sahəyə səfərlər (tələb olunarsa).<br>• İctimaiyyət ilə görüşlər | |

| № | Maraqlı tərəflər qrupu | Maraqlı tərəflər | Əlaqənin məqsədi | Əlaqə üsulu və fəaliyyətlər | Qarşılıqlı əlaqələrin/məsləhətləşmələrin təxmini vaxtı |
|---|---|---|---|---|---|
| | | | yoxlamaları. | | |
| | | Digər nazirliklər, müvafiq olaraq (o cümlədən):<br>• Kənd Təsərrüfatı Nazirliyi.<br>• Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi.<br>• Mədəniyyət və Turizm Nazirliyi.<br>• Fövqəladə Hallar Nazirliyi.<br>• İqtisadi İnkişaf Nazirliyi.<br>• Maliyyə Nazirliyi.<br>• Sənaye və Energetika Nazirliyi.<br>• Təhsil Nazirliyi.<br>• Şəhərsalma və Arxitektura üzrə Dövlət Komitəsi.<br>• BTC boru kəməri və s. üçün məsul olan dövlət şirkətləri<br>• Səhiyyə Nazirliyi. | • Layihə barədə icra hakimiyyəti orqanına məlumat vermək və rəsmi yazışma aparmaq.<br>• Torpaqla bağlı məsələlər üzrə müəyyən nazirliklərlə görüşlər (məsələn, Kənd Təsərrüfatı Nazirliyi).<br>• Müəyyən nazirliklərlə bəzi mövzular üzrə xüsusi danışıqlar - (məsələn, Mədəni dəyərlərin təsadüfi tapıntı proseduru üzrə Mədəniyyət və Turizm Nazirliyi ilə danışıqların aparılması). | • Rəsmi yazışmalar və görüşlər | |
| 10 | Ətraf mühit sahəsində işlərin görülməsi üçün milli QHT-lər və asossasiyalar: | *"Azəravtoyol" maraqlı tərəfləri aşkar etdikcə, siyahı tərtib ediləcək və onlara aşağıdakılar daxil ediləcək:* ECORES; XQMO; RIZGAR; ECOOIL; və s. | • Layihənin fəaliyyəti barədə milli QHT-lərin məlumatlandırılması | • Kütləvi informasiya vasitələri (elanlar) (yəni yerli qəzet və radio) vasitəsilə məlumat vermə.<br>• Layihə haqqında (məs. QTX, MTQƏP və KP) məlumat "Azəravtoyol"un internet saytında (http://www.azeravtoyol.gov.az/az ) və AYİB-in internet saytında (http://www.ebrd.com/home ) verilmişdir. | • Layihənin tətbiq edildiyi müddət ərzində - 2016-cı ilin 3cü rübündən başlayaraq. |

| № | Maraqlı tərəflər qrupu | Maraqlı tərəflər | Əlaqənin məqsədi | Əlaqə üsulu və fəaliyyətlər | Qarşılıqlı əlaqələrin/məsləhətləşmələrin təxmini vaxtı |
|---|---|---|---|---|---|
| **Daxili maraqlı tərəflər:** | | | | | |
| 11 | "Azəravtoyol" İşçiləri/Layihə nümayəndələri – məsələn, Layihənin İcra Qrupu / "Azəravtoyol"un Müxtəlif idarələri / Nəzarət Mühəndisi. | | Qrupu aşağıdakılar barədə məlumatlandırmaq:<br>• İnsan resursları siyasəti, şikayət mexanizmi, sağlamlıq və təhlükəsizlik prosedurları, davranış kodeksləri. | • Fərdi görüşlər və ya işçilərin daxili iclasları.<br>• Aylıq bülletenlər, məlumat lövhələri və s.<br>• Sahədə nümayəndələrdən aşağıdakılar barədə məlumat: insan resursları siyasəti; daxili şikayət mexanizmi; sağlamlıq və təhlükəsizlik prosedurları; davranış kodeksləri; ƏMSSTQ, ƏMSTP, KP və MTQƏP tədbirlərinin həyata keçirilməsi; MTQƏP şikayətlərin həll edilməsi mexanizmi. | • Layihənin tətbiqi müddətində |
| 12 | Həmkarlar İttifaqının nümayəndələri | | Qrupu aşağıdakılar barədə məlumatlandırmaq:<br>İnsan resursları siyasəti, şikayət mexanizmi, sağlamlıq və təhlükəsizlik prosedurları, davranış kodeksləri. | • Rəsmi yazışma.<br>• Görüşlər<br>• Həmkarlar İttifaqı nümayəndələrinin xahişi ilə məlumat | • Layihənin tətbiqi müddətində |
| 13 | Podratçılar | Tikinti şirkəti (şirkətləri)<br>Subpodratçılar<br>Yükdaşıma podratçıları. | • Yerli icma ilə qarşılıqlı əlaqələr barədə protokollar və tələblər ilə bağlı qrupu məlumatlandırmaq.<br>• Ətraf mühitin mühafizəsi, sağlamlıq və təhlükəsizlik, o cümlədən yerli icmalarda davranış kodeksi və s. ilə əlaqədar iş standartı və gözləntilər barədə qrupu məlumatlandırmaq | • Aşağıdakılarla əlaqədar rəsmi yazışma, görüşlər, davranış kodeksi, müqavilədə standart və gözləntilərlə bağlı məlumat: ətraf mühitin mühafizəsi; iş sağlamlığı və təhlükəsizliyi; təhlükəsizlik; sahələrə giriş; və icma ilə qarşılıqlı əlaqələr.<br>• Yuxarıdakıların həyata keçirilməsində Podratçıların fəaliyyəti barədə müntəzəm monitorinq.<br>• Tenderdə müvafiq sənədlərin verilməsi: məsələn ƏMSTP, MTQƏP, QTX, ƏMTQ, KP və s. | • Tender və müqavilə imzalanması zamanı<br>• Layihənin həyata keçirilməsi ərzində |

# 6. MƏLUMATIN AÇIQLANMASI VƏ MARAQLI TƏRƏFLƏRLƏ ƏLAQƏ PROQRAMI

**Layihə Sənədlərinin açıqlanması və Məsləhətləşmə İşləri**

"Azəravtoyol" ictimaiyyəti bütün müvafiq məlumatla təmin etmək niyyətindədir. 2016-cı ilin may ayından etibarən bütün maraqlı və təsirə məruz qalmış tərəflər "Azəravtoyol" (http://www.azeravtoyol.gov.az/az ) və AYİB-in (http://www.ebrd.com/home) veb-saytlarından aşağıdakı sənədləri əldə edə biləcəklər. Bu, Azərbaycan və ingilis dillərində təqdim olunacaq:

- Qeyri-Texniki Xülasə (QTX).
- Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planı (MTQƏP), o cümlədən Şikayətlərin Həll Edilmə Mexanizmi.
- Ekoloji və Sosial Tədbirlər Planı (ESTP).
- Gəncə-Qazax-Gürcüstan sərhəd yolunun genişləndirilməsi layihəsi: Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi (ƏMTQ) Hesabatı (2014).

Köçürmə Planı (KP) da başa çatan zaman açıqlanacaq, bu torpaq satın alınması başlamazdan öncə ediləcək. KP-nin həyata keçirilməsi tikinti və torpağa giriş əldə edilməzdən əvvəl tamamlanacaq.

Bundan əlavə, həmin sənədlərin çap nüsxələri aşağıdakı ünvanlarda mövcud olacaq:

- "Azəravtoyol" ASC (Bakı Baş Ofisi) [Binəqədi rayonu, Biləcəri qəsəbəsi, R. İsmayılov küç. 2025, Bakı, Azərbaycan, AZ1117]
- Şəmkir Rayon İcra Hakimiyyəti [AZ5700, Şəmkir, Mirzə Ələkbər Sabir, 15]
- Tovuz Rayon İcra Hakimiyyəti [AZ6000, Tovuz, Məşədi Əzizbəyov, 2]
- Ağstafa Rayon İcra Hakimiyyəti [AZ0500, Ağstafa şəhəri, Harif küç.3]
- Qazax Rayon İcra Hakimiyyəti [AZ3500, Qazax, Azadlıq, 78]
- Gəncə Rayon İcra Hakimiyyəti [AZ2000, Gəncə, Atatürk, 255]

***Tikinti Başlamazdan Əvvəl İctimaiyyətlə Görüşlər***

Tikintidən öncə Layihənin təsirinə məruz qalan 4 rayonun - Şəmkir, Tovuz, Ağstafa və Qazax rayonlarının İcra Hakimiyyətlərinin ofislərində ictimai məsləhətləşmə görüşləri planlaşdırılır. Bu məsləhətləşmə görüşlərinin təfərrüatları Rayon İcra Hakimiyyətləri ilə müzakirələrdə razılaşdırılacaq. Bu görüşlər həmçinin hər bir rayonda layihənin təsirinə məruz qalan Bələdiyyələrlə əməkdaşlığın qurulmasına xidmət edəcək və mövcud yol boyu biznes sahibləri də bu görüşlərdə iştirak etmək üçün dəvət olunacaq. Gəncə rayonu İcra hakimiyyətinin ofislərində də görüş keçiriləcək.

İctimaiyyətə görüşlərin vaxtına, tarixinə və yerlərinə dair məlumat çatdırmaq üçün yerli kütləvi informasiya vasitələrində (yəni qəzet və radioda) lazımi elanlar veriləcək. İctimaiyyətlə görüşlərə dair elanlar həmçinin Layihə yolu boyunca təsirə məruz qalan Bələdiyyələrin nümayəndələrinə də göndəriləcək.

Bu görüşlərdə Qeyri-texniki Xülasə hazır olacaq və aşağıdakı mövzuları əhatə edən təqdimat veriləcək:

- Layihənin dizaynı, tikinti və işçi qüvvəsinin təşkili üçün cədvəl.
- Marşrut variantları nəzərdən keçirilib və son marşrut seçilib.
- Yerli çıxış üçün alt, üst keçid yerləri, qovşaqlar və yerli xidmət yolları təklif edilib.
- QTX-də ümumiləşdirildiyi kimi, ekoloji və sosial təsirlərin xülasəsi və onların azaldılmasının nəzərdə tutulması.

- Layihə ilə əlaqədar və Torpağın Satın Alınması və Köçürülməsi məsələləri üzrə şikayətlərin həll edilməsi mexanizmi.
- Torpağın Satın Alınması və Köçürülməsi üzrə prosesin xülasəsi.

Buklet və plakatlar Şikayət Mexanizmində olacaq. İctimaiyyət üçün təchiz edilən bütün materiallar və məsləhət dəstəyi Azərbaycan dilində olacaq.

**Torpağın Satın Alınması və Köçürülmə üzrə Məsləhətləşmələr**

Satınalma haqqında Qanunun tələbinə uyğun olaraq, torpağın davam edən satın alınması və köçürülmə prosesi ilə əlaqədar olaraq görüşlər Rayon Bələdiyyəsi səviyyəsində davam edəcək. Layihənin təsirinə məruz qalan şəxslər və torpaq barədə yazışmalarda birbaşa iştirak, torpaq alınması prosesi üçün zəruri olan məlumatın toplanılması üçün davam edəcək. Bundan əlavə, Satınalma haqqında Qanuna uyğun olaraq, Layihənin təsirinə məruz qalan müvafiq şəxslərə kompensasiya verilməsi ilə bağlı əlaqədar öhdəliklər götürüləcək. Müvafiq məsləhətləşmə üsullarından istifadə olunacaq ki, təsirə məruz qalmış zəif təminatlı və istənilən təsirə məruz qalan az gəlirli və ev təsərrüfatlarının torpağın satın alınması, yaxud köçürülmə prosesində iştirakı təmin olunsun; xüsusilə, bu qruplara köçürülmə ilə bağlı yardımların göstərilməsi təmin edilsin.

Köçürülmə planının hazırlanması ilə bağlı məsləhətləşmə görüşləri və iştirak davam edəcək. Bura Layihənin təsirinə məruz qalan şəxslərin nümayəndələrinin daxil edildiyi Köçürülmə Komissiyasında iştirak daxildir. Köçürülmə planı hazırlandıqdan sonra açıqlanmalı və burada torpağın satın alınması və köçürülmə prosesi ilə əlaqədar maraqlı tərəflərin öhdəlikləri barədə daha ətraflı xüsusi məlumatlar əks olunmalıdır.

Məsləhətləşmə materialları, torpağın satın alınması və kompensasiya prosesində mövcud olacaq və buraya aşağıdakılar daxil ediləcək: Torpağın Satın Alınması və Köçürülmə (TAK) prosesi üzrə bukletlər və plakatlar, TAK Şikayət Mexanizmi və Torpağın Satın Alınması və Kompensasiya barədə Təlimat və sair. Bunlar Azərbaycan dilində olacaq.

**Tikinti zamanı maraqlı tərəflərin öhdəlikləri**

Layihənin tikinti prosesinə cəlb edilmiş "Azəravtoyol" və podratçı (lar) maraqlı tərəflərlə əlaqə saxlamağa davam edəcək. Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planı Layihənin inkişafını əks etdirmək üçün daim yenilənəcəkdir. Tikinti zamanı yol hərəkətinin idarə edilməsinə xüsusi diqqət yetiriləcək və bu, təsirə məruz qalan şəxslər və icmalarla əlaqələndiriləcək. Podratçının marşrutu boyunca icmaların sahəsində planlaşdırılan tikinti və yol təxribatları barədə onların məlumatlandırılması üçün davamlı proqramı olacaq

Podratçı Layihənin marşrutu boyunca müvafiq yerlərdə və icmaların yerləşdiyi ərazilərdə informasiya lövhələri quraşdıracaq. Bu, yerli sakinlər və bizneslər üçün bir media vasitəsi və ünsiyyət kanalı kimi xidmət göstərəcək. Tikinti zamanı əlaqədar məlumatları əldə etmək və yol hərəkətinin idarə olunması barədə məlumatlar bu lövhələrdə təmin ediləcək. Şikayətlərin Həll Edilməsi Mexanizmi və "Azəravtoyol"la, Nəzarət Mühəndisi və Podratçı ilə əlaqə məlumatları bu məlumat lövhəsində təmin ediləcək. Podratçı hər hansı tikinti işindən əvvəl iş sahələrini təmin edəcək və müvafiq tikinti, yol hərəkətinin idarə olunması və xəbərdarlıq nişanlarının yerində olmasını daim təmin edəcək.

## 7. ŞİKAYƏTLƏRİN HƏLL EDİLMƏSİ MEXANİZMİ

"Azəravtoyol" və onun Podratçısı (ları) şifahi və ya yazılı formada təqdim edilən Layihə ilə bağlı bütün şərh və şikayətləri qəbul edəcək. "Azəravtoyol" təsdiqləyir ki, məsləhətləşmə davam edən bir prosesdir və Layihə davam etdikcə, dizayndan tutmuş torpaqların satın alınması və tikinti mərhələlərinədək müxtəlif narahatlıqlar yarana bilər.

Layihənin İctimai Şikayət Formasının nümunəsi Əlavə 1-də verilir. Hər hansı bir şəxs və ya təşkilat aşağıda göstərilən əlaqə məlumatlarını istifadə edərək, telefon, poçt və ya e-poçt vasitəsilə, şəxsən şərh və şikayətlərini göndərə bilər.

Bu Layihə ilə bağlı (əməkdaşlar və podratçılar tərəfindən qaldırılanlardan başqa) maraqlı tərəflərin şikayətlərinin bütün növləri aşağıdakı şəxs vasitəsilə "Azəravtoyol"a çatdırılmalıdır:

Cənab Ceyhun Yusifov, LİQ direktoru: "Azəravtoyol" ASC, Binəqədi rayonu, Biləcəri qəsəbəsi, R. İsmayılov küç. 2025, Bakı, Azərbaycan, AZ1117 Tel .: +994 12 499 79 04 Fax .: +994 12 499 79 06, E-poçt: jeyhun.yusifov@ays.gov.az

İstinad üçün AYİB-in Bakı ofisinin əlaqə məlumatları aşağıda Bölmə 9-da verilir.

Tikinti Podratçısının (ları) Əlaqə məlumatları yerli ictimaiyyət üçün təmin ediləcək və Podratçı (lar) təyin edildikdən sonra, yenidən işlənmiş MTQƏP-yə daxil ediləcək.

Şikayət Forması (Azərbaycan və ingilis dillərində) "Azəravtoyol" saytında (http://www.azeravtoyol.gov.az/az) təqdim olunacaq və bütün aidiyyatı olan rayonlar (yəni, Gəncə, Şəmkir, Tovuz, Ağstafa və Qazax) ictimaiyyət üçün açıq olan çap edilmiş formaları əldə edəcəklər. "Azəravtoyol" şikayətlərin həll edilməsi mexanizmi haqqında bukletlər və plakatlar hazırlayacaq ki, bu, ictimai görüşlərdə təqdim olunacaq və Layihə sahəsinə aid yerli icmalar yerləşən yerlərdə paylanacaq. Layihə işçi qüvvəsi üçün Şikayətlərin həll edilməsi mexanizmi də ayrıca bir proses kimi Podratçı (lar) tərəfindən yaradılacaq.

"Azəravtoyol" Layihə ilə bağlı şərh və şikayətlər prosesinə nəzarət edəcək. Bu məlumatların xülasəsi İllik Ətraf Mühit, Sağlamlıq və Təhlükəsizlik və Sosial (ƏMSƏTSS) hesabatda təqdim olunacaq. Bu hesabatlar hazırlanacaq və "Azəravtoyol" saytında yerləşdiriləcək. "Azəravtoyol" 5 iş günü ərzində zərər haqqında şikayətin alınmasını təsdiqləyəcək və 15 gün ərzində bunu cavablandıracaq. Bütün dövrlərdə, şikayətçilər həmçinin, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hüquqi vasitələri axtara bilərlər.

## 8. HESABAT

"Azəravtoyol" məsləhətləşmə prosesi zamanı qaldırılan məsələlərin təfərrüatlarını dərc edəcək, öz veb-saytında müvafiq rəy təmin edəcək və çap nüsxələrini yuxarıdakı Bölmə 7-də göstərilən Rayon icra hakimiyyəti orqanlarının ofislərində yerləşdirəcək. Satınalma Haqqında Qanun (yəni Maddə 17) çərçivəsində tələb olunan ictimai görüşlər barədə hesabat da hazırlanacaq. Layihə ərzində "Azəravtoyol" maraqlı tərəflərlə əlaqə saxlayacaq və onları hər hansı əhəmiyyətli məsələlər, məsələn, Layihə qrafikində dəyişikliklər barədə məlumatlandıracaq. "Azəravtoyol" öz saytında Layihə yeniliklərini təmin edəcək və həmçinin, zəruri olduqda, marşrut boyunca yerli icmaları bukletlərlə təmin edəcək. "Azəravtoyol" sağlamlıq, əməyin təhlükəsizliyi və sosial məsələlərin idarə olunması üzrə Layihənin icrası barədə xülasənin də daxil olduğu İllik ƏMSƏTSS hesabatı hazırlayacaq. Bu, "Azəravtoyol" saytında yerləşdiriləcək.

## 9. MTQƏP-NİN HƏYATA KEÇİRİLMƏSİ İLƏ BAĞLI ƏLAQƏ MƏLUMATLARI VƏ CAVABDEHLİK

Layihənin hazırlanması barədə sənədlər "Azəravtoyol"un (http://www.azeravtoyol.gov.az/az) veb-saytında yerləşdirilib və tamamlandıqdan sonra AYİB-in (http://www.ebrd.com/home) veb-saytında da olacaq. "Azəravtoyol" və Podratçı (lar) MTQƏP-nin həyata keçirilməsi üçün məsuliyyət daşıyır.

| | |
|---|---|
| **Layihənin əlaqə məlumatları aşağıda verilmişdir:**<br>**"Azəravtoyol" ASC**<br>C-b Ceyhun Yusifov, LİQ Direktoru<br>AZ1117, Azərbaycan,<br>Bakı, Binəqədi rayonu,<br>Biləcəri qəsəbəsi, 2025<br>R.İsmayılov küçəsi<br>Tel.: +994 12 499 79 04 Faks: +994 12 499 79 06<br>E-poçt: jeyhun.yusifov@ays.gov.az | **AYİB-in Bakıdakı Regional Ofisinin əlaqə məlumatları:**<br>**Avropa Yenidənqurma və İnkişaf Bankı**<br>Bakı Rezident Ofisi<br>AZ1010,<br>Azərbaycan, Bakı,<br>90A Nizami küçəsi, Landmark III, 3-cü mərtəbə<br>Tel: +994 12 497 1014 |

**Əlavə 1 İctimai Şikayət Forması**

**İctimai Şikayət Forması**

| | |
|---|---|
| **Sənədin Nömrəsi:** | |
| **Ad və soyad** | Ad: ________________________________________<br>Soyad: ________________________________________<br>☐ Mən öz şikayətimi anonim etmək istəyirəm<br>☐ Mənim razılığım olmadan şəxsiyyətimin açıqlanmamasını xahiş edirəm |
| **Əlaqə məlumatı:** Sizlə necə əlaqə saxlanılmasını istəyirsiniz (poçtla, telefonla, e-poçtla) | Poçtla: Poçt ünvanını göstərin: _________________________<br>______________________________________________________________<br>Telefonla: ____________________________________________________<br>E-poçtla ____________________________________________________ |
| **Rabitə üçün üstünlük verilən dil** | [Azərbaycan dili]<br>[Digər: ______________________________] |
| | |
| **Hadisə və ya Şikayətin Təsviri:** Nə baş verib? Harada baş verib? Bunu sizə kim edib? Problemin nəticəsi nədir? | |
| | |
| **Hadisənin / Şikayətin tarixi** | |
| | Bir dəfə baş vermiş hadisənin / şikayətin (tarixi ________________)Bir dəfədən çox baş verib (neçə dəfə? ______)<br>Hazırda davam edən (hal-hazırda yaşanan problem) |
| | |
| **Problemin həlli üçün hansı tədbirin görülməsini istərdiniz?** | |
| | |
| İmza: ______________________________ | Tarix: _________________ |

**Bu formanı aşağıdakı ünvana qaytarın:**

Cənab Ceyhun Yusifov, LİQ direktoru

Tel .: +994 12 499 79 04

Faks .: +994 12 499 79 06

E-poçt: jeyhun.yusifov@ays.gov.az

**"Azəravtoyol" ASC**

Binəqədi rayonu,

Biləcəri qəsəbəsi,

R. İsmayılov küç. 2025. Bakı, Azərbaycan, AZ1117